# Xoş gəlmişsən,

## Ən maraqlı Yeni il adətləri

Çilidə insanlar gecə yarısı bir qaşıq mərcimək yeyənlərin



bütün il boyu işlərinin yaxşı gedəcəyinə və həmin il çoxlu pul əldə edəcəklərinə inanırlar.

Yeni Zelandiyada yeni ilə qədəm qoyarkən hər kəs küçələrə tökülür və mümkün olduğunca yüksək səslə qazan tava çalınır.

İspaniyada gecə yarısı zənglər çalarkən hər bir vuruş üçün bir üzüm dənəsi yemək adətdir.

Argentinada gecə yarısı sağ ayağınızı irəli uzatsanız, ilə sağ ayaqla girmiş olarsınız. Bütün il yaxşı keçər.

Braziliyalılar 7 dalğa üzərindən tullanılan zaman şansınızın yaxşı olacağına inanarlar.

İngilislər hər yeni il gecəsi nifrət etmələrinə baxmayaraq Jools Holland'ın "Hootenanny" sini izləyərlər.

Kolumbiyalılar üçün küçənin ətrafında boş bir çamadanla bir az dolanmaq, bütün ilin gəzərək keçəcəyi mənasını verər.

Şotlandiyada saatlar gecə yarısını vurar vurmaz dostun evinə "ilk ayaq" basan olmaq üçün bir yarış başlayır. İlk ayaqlar getdikləri evlərə pul, çörək, duz, kömür, viski kimi mədəni bolluq da apararlar.

Argentinada yeni il gecəsi yeni bir çəhrayı don geyinsəniz sevginin sizi tapacağına inanılır.

Türkiyədə qurşun tökmək bəd nəzəri dəf edərkən, Finlandiyada gələcəyi təxmin etmək üçün istifadə olunur . Məsələn tökülən qurşunda üzük ya da ürəyə bənzəyən bir şey görülərsə, o il eşq və evlilik var deməkdir.

Panamada yeni il gecəsi məşhurların "muneco" deyilən və pis ruhları təmsil edən kuklaları yandırılır.

Filippində yumru şəkilli cisimlər qızıl pulları xatırlatdıqları üçün bərəkət simvoludur. O səbəblə yeni il gecələri süfrədə yumru şəkilli meyvələrin olması şərtdir.

Estoniyada yeni il günü yeddi pay yemək yemək və belədə bir sonrakı il yeməklərin bolluğunu təmin etmək adətdir. Yeddi nəfərlik yemək yeyən bir adamın yeddi adamın gücünü alacağına da inanılır.

## Yeni il münasibətilə tamaşa hazırlanmışdır

Qəbələ Mədəniyyət Mərkəzində balaclar üçün "Qış nağılı" adlı yeni tama hazırlanmışdır.

Mərkəzdə fəaliyyət göstə-



rən "Şəms" uşaq teatrı studiyasının səhnələşdirdiyi "Qış nağılı" adlı tamaşanın dekabrın 29-da premyerası olmuşdur. Bayram günlərində nümayiş etdirilən tamaşa uşaqlar tərəfindən maraqla qarşılanmışdır. Azərbaycan xalq nağıllarının motivləri əsasında hazırlanan tamaşanın əsas personajları Şaxta baba, Qar qız, Göyçək Fatma, Keçəl, Tülkü və Ayı balacalarla görüşə gəlmişlər.

Tamaşanın rejissoru Müsavər Qasımov, səs operatoru Maqsud Kərimov, işıq ustası Süleyman Yaqubovdur.

Rolları Xəyal Gəncimov, Elşən Salehov, Leyla Zakirova və digər gənc aktyorlar ifa etmişlər.

**"Qəbələ"**

## Yeni il axşamında dünyaya körpə gəldi

Yeni il axşamında
Dünyaya körpə gəldi,
Şadlandı, güldü hamı.
Evdə nənə-babanın
Oldu o gün bayramı.

Yeni il axşamında
Dünyaya körpə gəldi,
Yanağı qızılıdı.
Məhəbbət bağçasının
Qönçəsidi, gülüdü.

Yeni il axşamında
Dünyaya körpə gəldi,
Məhəbbət təzələndi,
Sevən ürəklər üstə
Səmadan nur ələndi.

Yeni il axşamında
Dünyaya körpə gəldi,
Evin nübar körpəsi,
İki gəncin sevgisi–
İki qəlbin körpüsü!

**Emin BARATOĞLU,**
**AYB-nin üzvü**

## Yeni il ilə bağlı maraqlı faktlar

● Yeni ilə bənzər bayramın keçirilməsi haqqında məlumatlar b. e. 3-cü minillikdə Mesopatamiyaya aiddir.

● Şam ağacını bəzəmək ənənəsi ilk dəfə orta əsrlərdə müasir Almaniyanın ərazisində əmələ gəlmişdi.

● Rusiyada yeni ili I Pyotrun sərəncamından sonra qeyd etməyə başlayıblar.

● İlk dəfə Şaxta baba 1840-cı ildə Odoyevskinin "İriney babanın nağılları"nın personajı kimi xatırlanır. "Şaxta daşıyıcısı" nın kökləri isə slavyan mifologiyasına gedir.

● Qar qız və Şaxta baba isə sovet vaxtlarında yaranmışdılar. İlk dəfə 1937-ci ildə bayramda Qar qızın və Şaxta babanın dueti baş tutmuşdu.

● Rəsmi olaraq Yeni ilin əsas personajının ad günü-nü 18 noyabrda qeyd edirlər.

● Rəvayətə görə Qar qızın vətəni Kostrom əyalətidir. "Qar qızı" pyesinin müəllifi Aleksandr Ostrovskiy də Kostrom ələyətindəndir.

● Yeni ildə fişəng partlatmaq adəti Asiyadan gəlib. Bunun mənası ondadır ki, fişəng nə qədər rəngarəng və yüksək səsli olsa, pis ruhlar bir o qədər qorxarlar.

● Santa Klausun marallarının adı Deşer, Dener, Prenser, Viksen, Komet, Donner, Blitsendir. Şimali Amerikada sürünün başçısı qırmızı burunlu Rudolfdur.

● Kiprdə Şaxta babanı Vasiliy adlandırırlar.

● İlk dəfə işıq saçan elektrik grelyandı 1895-ci ildə Ağ evin qarşısında asmışdılar.

● İlk dəfə 19-cu əsrin ortalarında İsveçdə şüşədən düzəldilmiş şam ağacı oyuncaqlarından istifadə olunub.

● İlk dəfə milad açıqcası İngiltərədə 1843-cü ildə yayılıb.

## Nic qəsəbəsində Milad bayramı qeyd edilib

Yanvarın 7-də dünyanın pravoslav xristianları tərəfindən İsa Peyğəmbərin mövludu günü–Milad bayramı qeyd olu-



nur. Qəbələ rayonunun Nic qəsəbəsində yaşayan udilər də bu günü özünəməxsus şəkildə qeyd edirlər.

"Cotari" alban kilsəsində təşkil olunan bayram mərasimində Alban-udi icmasının rəhbəri, kilsənin keşişi və icmanın üzvləri çıxış edərək Milad bayramının mahiyyətindən, tolerantlıq diyarı olan Azərbaycanda dini ayinlərin icrası üçün yaradılan şəraitdən, dövlətimizin onlara olan diqqət və qayğısından danışmış, bayram münasibətilə təbriklər səsləndirmişlər.

Qeyd olunmuşdur ki, müsəlmanların və xristianların mehriban şəkildə birgə yaşadığı Nic qəsəbəsi tolerantlığın kiçik modeli hesab edilir. Tədbirdə çıxış edən udilər rayonda onlara qarşı heç bir ayrı-seçkiliyin olmadığını qeyd etmişlər.

Məlumat verilmişdir ki, Nicdə 3 kilsə və 2 məscid var. Çıxışlarda qeyd olunmuşdur ki, "Cotari" alban kilsəsinin əsaslı şəkildə bərpa edilərək udilərin istifadəsinə verilməsi və Heydər Əliyev Fondu tərəfindən "Blun" (Baş) kilsəsində təmir-bərpa işlərinə başlanılması ölkədə tolerantlıq mühitinə gözəl nümunədir.

Qeyd olunmalıdır ki, yeddi min nəfər əhalisi olan qəsəbədə hazırda 3700 nəfərdən çox udi yaşayır. Dünyada yaşayan udilərin sayı isə 10 minə yaxındır. Qəsəbədə udilər öz dilini, dinini, adət-ənənələrini əsrlər boyu qoruyub saxlamışlar. Nic qəsəbəsindəki məktəblərin ibtidai siniflərində udi dili tədris olunur, kilsədə dini ayinlər onların ana dilində icra edilir.

Sonda Milad günü mərasimi ilə əlaqədar kilsədə şamlar yandırılmış, dualar oxunmuş, bayram süfrəsi açılmışdır.

**"Qəbələ"**